*İNGİLTƏRƏ*

*Tərcümələr:* **Leyli Əliyeva**
Ortaq başlanğıc və intibah dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi
*leyli.aliheydar@mail.ru*



# Tomas Uayet
(1503-1542)

## UZUN ÖMÜR SURMƏK AĞIRDAN AĞIR

Uzun ömür sürmək ağırdan ağır,
Ağırdan ağırsa - lap böyük kədər.
Kədər çoxaldıqca, ümid azalır,
Ümid yox olarsa - yaşamaq hədər.

# Vilyam Şekspir
(1564-1616)

## NƏĞMƏ

Qocalıqla gənclik yaşamaz birgə,
Gənclik bir günəşdir, qocalıq - kölgə.
Gənclık - yay səhəri, qocalıq - çiskin;
Gənclik cəngavərdir, qocalıq - miskin,
Gənclik - həyat eşqi, qocalıq - sönük,
Gənclik coşub-daşır, qocalıq - bükük.
Gənclik oddur, yanır, qocalıq - solğun,
Gənclik - dəliqanlı, qocalıq - yorğun.
Qocalıq yamanca gəncliyə heyran,
Mənim Məhəbbətim, Eşqim də cavan.

## TƏMİZ AD

Əzizim, təmiz ad, bil ki, şərəfdir,
Kişiyə, qadına ləl tək gərəkdir.
Bir kəs pul kisəmi götürsə belə,
O cüzi bir seydir, gedəcək yelə.